№ 1/01-641
04 11 2022

itv

Ünvan: AZ1012, Azərbaycan, Bakı şəh., Şərifzadə küç., 241
Tel.: (+994 12) 430-82-18, Faks.: (+994 12) 430-34-26
www.itv.az

**Azərbaycan Respublikası
İctimai Televiziya və Radio
Yayımları Şirkəti**

**Azərbaycan Respublikası
Vəkillər Kollegiyasının
Rəyasət Heyətinin sədri
cənab Anar Bağırova**

**Hörmətli Anar müəllim,**

Nəzərinizə çatdırmaq istəyirik ki, İctimai Radionun təşəbbüsü və texniki dəstəyi ilə qarşılıqlı razılaşmaya əsasən 2022-ci ilin mart ayından başlayaraq Vəkillər Kollegiyasının üzvü Rövşən Mərəndskiy ilə əhalinin hüquqi maarifləndirilməsi yönündə fəaliyyətə başlamışıq. Bu fəaliyyət radioefir vasitəsi ilə 90.0 FM dalğasında həftədə 7 gün olmaqla vəkil Rövşən Mərəndskiy tərəfindən qanunvericiliklə bağlı aktual və çox verilən sualların anlaşılan və qısa formada izahından ibarətdir.

"Vəkil Rövşən Mərəndskiy ilə Hüquq dərsləri" adlı rubrika artıq dinləyicilərimiz tərəfindən qəbul edilib, vəkilin cavablandırılması üçün çoxsaylı suallar və təşəkkür zəngləri almışıq. Fəaliyyətinin müsbət nəticə verdiyinin şahidiyik. Həmçinin, həmin rubrika İctimai Radionun Youtube və digər sosial şəbəkə hesablarında da yayımlanır. Qeyd edək ki, həmin rubrikanı vəkil təmənnasız olaraq aparır.

Sizin vasitənizlə Vəkillər Kollegiyasının üzvü Rövşən Mərəndskiyə əhalinin hüquqi maarifləndirilməsi fəaliyyətində gördüyü işlərə görə təşəkkürümüzü bildirir, əməkdaşlığımızın bundan sonra da uğurla davam edəcəyinə ümid edirik.

AZƏRBAYCAN RESPUBLİKASI İCTİMAİ TELEVİZİYA və RADİO YAYIMLARI ŞİRKƏTİ • PUBLIC TELEVISION and RADIO BROADCASTING

**Hörmətlə,**

**Baş direktor** **Balakişi Qasımov**

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 3394
« 05 » 11 2022 il